Kirman Rüstəmli

## Bənövşəm

Çox çalıştım, bu dünyada karım yox,
Səndən başqa cah- cəlallı varım yox.
Qış gəlibdir dağlarımda qarım yox
Yaz gələndə görüşerek, bənövşəm.

Adın çəkməm, nərgiz məndən inciyər,
Yaz gəlməsə qar altında linciyər,
Səni kimsə dərər, bil mənimsəyər,
Söylə, nə vaxt bir düşərik, bənövşəm?

Gülləri dər, dəstə-dəstə dəstələ,
Mahnı düzəlt, sən onları bəstələ,
Yalqız qalma, hərdən sən məni səslə,
Qoy yaradaq biz bir birlik, bənövşəm.

Hər yan güldür, boylanıblar, boya bax,
Çəmən dolu al çiçəkdir, saya bax,
Sən boy atma, nə özünü oda yax,
Başdan başa sən bir sirlik, bənövşəm.

Bənd qalandı qol-qol oldu uşaqlar,
Sədd yaratdı qırılmayan qurşaqlar,
Həbs edildi bircə -bircə dustaqlar,
Göz yaşların suyu dirlik, bənövşəm.

Dözənmədim bəndi qırdım, ayırdım,
Özüm üçün möhkəm qala qayırdım.
Atılaraq o qalanı mən yardım,
Mən də vardı bir fənd, girlik, bənövşəm.